

# MÖVLUD AĞAMMƏD

## MİRZƏ ŞƏFİ VAZEHƏ TƏXMİS

Demə, ey dərdi olan, dərdlərinin çarəsi var,
Sənə həmdərd olacaq gözlərinin qarəsi var,
Qəmi çəkməklə qutarmaz. Ahı, həm zarəsi var...
"Nə qədər kim, fələyin sabitü-səyyarəsi var,
Ol qədər sinədə qəmzən oxunun yarəsi var".

Görübən hüsnünü şərm eylədi kim eyləsə pənd,
Məni Məcnun, səni Leyla kimi qılmışdı pəsənd,
Eləməz zərrəcə kar, yandıracaq olsa sipənd...
"Deyil əflakdə kövkəb görünən çərxi-bülənd,
Oluban didəsərapa sənə nəzzarəsi var".

Yada sal ayrılığın, ağlama zinhar, keçər,
Gecələr sübhə qədər eyləmə ah-zar, keçər,
Qəmə meyl etməginən, olma giriftar, keçər...
"Ruzigarı tirə, daim ki, şəbi-tar keçər,
Hər kimin eşqdə bir yari-sitəmkarəsi var".

Qəmi hər dəm özümə eyləmişəm munisi-can,
Edəməm çarəmi loğman desə var dərdə dəvan,
"Necə xun cuşə gəlib eyləməsin ahu-fəğan?
Könlümün dideyi-giryan kimi fəvvarəsi var".

Meyə meyl etmədi, meyxanədədir dərd əhli,
Günü, Mövlud, qara, viranədədir dərd əhli.
Qəmi çox-külbeyi əhzanədədir dərd əhli...
"Ol qəzəldir ki bu, Vazeh dedi, bir dərd əhli,
Zahirən lalə otağında qonaq-qarəsi var".

## ÜÇLÜK

Ver dərdi çəkən kəslərə, çəkməklə tükənməz...
Birdən çəkə bilməz qəmi, əğyarə verərsən,
Birdən qəmi əğyarə verərsən və bölərsən...

Öz dərdini tək çəkməyə qadirdisə aşiq,
Məcnun kimi səhralara düşmək nədi, bilməz...
Məcnun kimi düşmək nədi bilməz və əyilməz.

Mən cövri-cəfa çəkməyə məhkum, qəmə mail...
Qəm mənlə küsüb, könlümü almazsa, barışmaz,
Qəm könlümü almazsa, barışmaz və danışmaz...

Eylərmi könül aləmə razin bu qədər faş...
Pünhan qala bilməz, çəkə bilməzmi deyərlər,
Pünhan çəkə bilməzmi deyərlər və gülərlər...

Yox ağlamağın çarəsi, Mövlud, daha bəsdir...
Axtarma əbəs türfə gözəllərdə sədaqət,
Axtarma gözəllərdə sədaqət və məhəbbət...

## QƏZƏLLƏR

Aşiqlərə yar dərdinə dərmanı olandı,
Göz yaşı üçün nəhrinə ümmanı calandı.

Haqqın yolu bağlansa da, haqq dönmədi yoldan,
Hər doğruya aldanma ki, bürhanı yalandı.

Dünyanı dolanmaq ilə fırlanmadı dövran,
Öz başı dolansın deyə dövranı dolandı.

Mən-mən deyibən çox sinənə döymə, əbəsdir,
Yar vəslinə yetmək dilə, hicranı qalandı.

Mövlud, ölümün şah damarından da yaxındır,
Çatsan görəcəksən sona, hər yanı dalandı.

***

El çəkdi sənin dərdini divanəliyindən,
Əl çəkdi deyib bezdimi biganəliyindən?

Hal əhlində ver dərdi, çəkənlər çəkə bilsin,
Zülm eylədi dərdin mənə şəhanəliyindən.

Bəslərdi könül bağını gülşən edərək zənn,
Bağban kimi gül dərdimi viranəliyindən?!

Sərgəştədi aşiq, yolu meyxanəyə düşmüş,
Eşq camı içir qəm dolu, məstanəliyindən.

Peymanını sındırdı, könül xanəsi uçmuş,
Əl çəkmədi Mövlud yenə mərdanəliyindən.

***

Ey dil, nə əcəb sən kimi dildarə inandım?!
Solmaqdadı gül gülşənə, gülzarə inandım.

Aldanma, şirin dil səni yardan edəcəkdir,
Çox söz dedilər, amma ki əğyarə inandım.

Bildim, məni hal əhli bilib tən edəcəklər,
Pünhan çəkilən dərd idi, qəmxarə inandım.

Rəhm etmədi Məcnun kimi aşiqlərə dövran,
Qalmaqda nihan, kaşifi-əsrarə inandım.

Həmdəm ola Mövlud sənə, dilbər, nə düşündüm,
Gördüm üzü dönmüş gülü-rüxsarə inandım.

***

Ey könül, pişvazə çıx, ol mahi-tabanın gəlir,
Əhdi-peyman etdiyin hüsnündə heyranın gəlir.

Firqətindən zar qılan ağlar gözün sil yaşını,
Ayrılıb səndən gedib, çox çəkdi hicranın, gəlir.

Çox güman, zənn etmisən, dözməz zimistan cövrinə,
Bir çələng hörgil bənövşəndən, gülüstanın gəlir.

Eşqi-əhlindən soruş, candan iraq gəzmək nədir,
Təninin tən yarı oldur, təndə bir canın gəlir.

Zarı qılmaq, Mövluda, möhnət yükün çəkmək deyil,
Hazıram fərmanına, çün dərdə dərmanın gəlir.

***

Təndə dərd bəslər könül istəkli bir yar olmasa,
Seyri-gülzar etdiyi hərgiz çəmənzar olmasa.

Bağı-cənnətdən alır nur şəm\`i-rüxün, ey sənəm,
Tarı-zülmətdən donar aləm gülüzar olmasa.

Vəslətin çox istədim, ondan könül aşüftədir,
Çün şəfaət tapmaram dərmanı əfkar olmasa.

Kim sevərsə cani-dildən, ol əsiri-dərd olar,
Sirri bilməz kimsənə, əlbəttə, əğyar olmasa.

Mövluda, çox etmişəm ah, dərdi dərdnən çəkmişəm,
Çəkməyim bihudədir hər dərdi qəmxar olmasa.

***

Dağıdır badi-səba, telləri əfşan görünür,
Elə bil şanə çəkib, zülfü zərəfşan görünür.

Elə tərif eləyirlər ki, görənlər, deyəsən,
Yaranıb hüsnü gözəl, sərvi-xuraman görünür.

Çəkirəm dərdimi gizlində, bəyan etməmişəm,
Demə kim, razi-dilim aləmə pünhan görünür.

Düşəcək dillərə, əfsanə olub gül adımız,
Deyəcəklər, bu da bir aşiqi-dövran görünür.

O qədər bəxtəvər oldun səri-kuyin diləyib,
Camalın Mövluda, yar, rövzeyi-rizvan görünür.

***

Ey üzü mahi-təbanım, nazlı yarım, sənmisən?
Möhnətim, dərdim, məlalım, intizarım, sənmisən?

Çək üzündən qəm tülün gülsün üzün, çox çəkmə qəm,
Qəm ilə həmdəm olan, ey qəmküsarım, sənmisən?

Kor olar aləmdə ol gözlər ki, görməz surətin,
Sirr deyil, görmək nihandır, aşikarım sənmisən?

Canı etməkçün fəda hal əhliyəm, can vermişəm,
Getdi əldən, qalmamış can, ixtiyarım sənmisən?

Əlvida söylərmi Mövlud yarına kam almamış,
Vəslinə yetməkdi arzum, son qərarım sənmisən?!

***

Yoxdur demə, dünyada qəmin möhtacı insan,
İnsandı bəşər övladı, olmaz qəmi pünhan.

Pünhan necə çəksin qəmi Məcnun kimi aşiq,
Aşiqlərə zülm etmədə pərgardı bu dövran.

Dövran belə gəlmiş deyə səbr eyləmə, ey şəm,
Şəmdən yana pərvanə edər canını qurban.

Qurban sənə olsun bu canım, can dilə məndən,
Mən istəmərəm kim, çəkəsən qəm ilə hicran.

Hicrandı qəmin çarəsi, Mövlud, bunu dərk et,
Dərk et nədi ah-zar, nədi nalan, nədi əfğan.